# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının ştat sayının müəyyən edilməsi və "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 oktyabr tarixli 85 nömrəli Qərarının ləğv edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının ştat sayı 71 vahid müəyyən edilsin.

2. "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının strukturunun və ştat sayının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 oktyabr tarixli 85 nömrəli Qərarı ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə olunsun ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 57-ci maddəsinin altıncı hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatının ştat cədvəlinin təsdiq edilməsini həyata keçirsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, " 22 " fevral 2024-cü il

№ 14